Azərbaycan.- 2021.- 21 aprel. S. 3.

# Azərbaycan üçün ənənəvi sahə olan pambıqçılıq dirçəlib





Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabul rayonunun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əkin sahəsində pambıq səpininə start verilməsi prosesini izləyib.

Pambıqçılıqda əvvəlki illərlə məhsuldarlığı müqayisə edən **Prezident İlham Əliyev** dedi: Altı il bundan əvvəl mən bu məsələ ilə maraqlananda pambıqçılıq, demək olar ki, batırdı, cəmi 30-35 min ton yığılmışdı. Keçən il isə 336 min ton, 10 dəfə çox.

Qeyd edək ki, 2015-ci ildən dövlət başçısının kənd təsərrüfatının bir çox sahələrinə xüsusi yanaşmasının şahidi olduq. Nəticədə məhsuldarlıq dəfələrlə artdı, xüsusi stimullaşdırıcı tədbirlər görüldü. Faktların müqayisəli təhlili onu deməyə əsas verir ki, Azərbaycan üçün ənənəvi sayılan pambıqçılıq dirçəlib. Ölkədə hər hektardan məhsuldarlığın 30 sentnerdən yuxarı olduğu cəmi 3 il qeydə alınıb. Konseptual yanaşmanın tətbiq olunduğu 2015-ci ildə bu rəqəm 2 dəfə aşağı idi. Görülən kompleks tədbirlər artıq tarixi maksimuma yenidən çatmağı şərtləndirib. Ötən il hər hektardan məhsuldarlıq 33,6 sentner təşkil edib.

Sonra fermer Elşən Xəlilovun pambıq tarlasında səpinə start verildi.

Bu il Hacıqabulda 300 hektar sahədə pambıq əkini aparılacaq. Artıq əkinlə bağlı tədarükçü şirkət 34 fermerlə müvafiq müqavilələr imzalayıb, onlar lazımi texnika və toxumla təmin ediliblər.

**Prezident İlham Əliyev:** Deməli, indi 2600 manat alacaqsan.

**Elşən Xəlilov:** Bəli, orada hər kiloqrama da 10 qəpik.

**Prezident İlham Əliyev:** Alış qiyməti də artıb?

**Elşən Xəlilov:** Bəli.

**Prezident İlham Əliyev:** Ona görə dövlət hər şeyi edib. Belə müasir texnikalar, bu traktorlar hamısı bizdə istehsal olunur?

**Elşən Xəlilov:** Bəli, cənab Prezident.

**Prezident İlham Əliyev:** Kombaynlar da ən qabaqcıl texnologiyalar əsasında hazırlanıb.

Azərbaycan pambıqçılığın inkişafı üçün mövcud dəstək mexanizmləri sırasına aqrotexniki dəstək, yəni, fermerlərin toxum, gübrə, pestisid, herbisid, dərmansəpən maşınlar, kultivasiya işini həyata keçirən texnikalarla təminatı, dövlət xətti ilə ölkəyə kifayət qədər ən müasir pambıqyığan kombaynların gətirilməsi, satışa yardım - tədarükçü şirkətlərin müqavilə əsasında məhsulun hər tonunu sortdan asılı olaraq 550-650 manata satın alması, subsidiyaların ayrılması daxildir. Dövlət fermerlərə pambıq sahəsinin hər hektarına görə 260 manat, təhvil verilən pambığın hər tonuna görə 100 manat subsidiya ödəyir. Subsidiyalar pambıqçıların "Fermer kartı"na köçürülür.